


*"Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir...Azərbaycan öz torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir."*

*Heydər Əliyev*

# "Dağlıq Qarabağ problemi Avropa Şurasının hüquqi sənədlərində"

***Hüquq elmləri doktoru, akademik Elşad Abdullayevin müəllifi olduğu "Dağlıq Qarabağ problemi Avropa Şurasının hüquqi sənədlərində" adlı kitabı 2006-cı ildə "Təhsil" nəşriyyatında, 288 səhifə həcmində, 500 nüsxə tirajla nəfis şəkildə çap olunmuşdur. Kitabın elmi redaktoru Gülər Ələkbərqızıdır.***

Bu vəsait xalqımızın ümummilli probleminə çevrilmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinin gedişini, beynəlxalq birliyin, xüsusilə Avropa Şurasının bu məsələdə tutduğu mövqeyin nə dərəcədə ədalətli olduğunu araşdırır. Burada müəllifin əsas məqsədi bu gün bütün Cənubi Qafqazda təhlükəsizliyə və sabitliyə mane olan çox mürəkkəb bir məsələnin həqiqi mahiyyətini oxuculara çatdırmaq və dünya birliyinin problemə münasibətdə ədalət meyarlarına əsaslanmasının zəruriliyini sübut etməkdən ibarətdir.Vəsaitdə Azərbaycan Respublikası prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Avropa Şurası çərçivəsində Azərbaycanın apardığı uğurlu diplomatik mübarizə prosesi və onun nəticələri diqqətə çatdırılır.

Kitab nəinki Azərbaycan, eləcə də bütün region xalqlarının həyatına mənfi təsir göstərən Dağlıq Qarabağ münaqişəsinin səbəblərini öyrənmək istəyənlər üçün qiymətli vəsaitdir.

"Müəllifdən" adlı sərlövhədə akademik E.Abdullayev yazır ki, "Dağlıq Qarabağ problemi Avropa Şurasının hüquqi sənədlərində " kitabı bu prosesin yalnız bir istiqamətini- cənab İlham Əliyevin rəhbərliyi ilə Avropa Şurası çərçivəsində Azərbaycanın apardığı uğurlu diplomatik mübarizə prosesini və onun nəticələrini diqqətinizə çatdırır. Ümid edirəm ki, bu kitab "Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə olduğu kimi çatdırılması işinə töhfə olacaqdır"

Ön sözün müəllifi hüquq elmləri doktoru Lətif Hüseynov qeyd edir ki, bu qiymətli əsər-"Dağlıq Qarabağ problemi Avropa Şurasının hüquqi sənədlərində" kitabı Dağlıq Qarabağ münaqişəsinin tarixini, nizamlama prosesinin çətinliklərini, problemin regionda gedən proseslərə təsirini öyrənmək istəyənlər üçün əvəzsiz vasitə olacaqdır. İstənilən halda belə bir kitabın ərsəyə gəlməsi təqdirəlayiqdir. Ən azı ona görə ki, "Dağlıq Qarabağ təkcə yaralı yerimiz deyil, həm də bizim tariximizdir. Gələcəyə doğru addımlamaq üçün tarixi öyrənmək çox vacibdir".

Bu vəsait "Müəllifdən" ,"Ön söz", "Azərbaycan Avropa ölkələri ailəsinə qəbul edilmişdir" adlı başlıqlardan və 3 fəsildən ibarətdir. I fəsil "Ermənistanın Azərbaycana təcavüzü Cənubi Qafqazda sülhə- və təhlükəsizliyə ciddi maneədir" adlanır və 3 yarımbaşlıqdan ibarətdir: 1) "Münaqişənin səbəbləri və onun regiondakı proseslərə təsiri".2)"Heydər Əliyevin sülh siyasəti münaqişənin yeganə nizamlama formulu kimi". 3) "Ermənistanın Azərbaycana təcavüzü beynəlxalq birliyin müzakirə obyektində" .

Kitabın II fəsli "Avropa Şurası Azərbaycan torpaqlarına işğalı faktını tanıyan ilk təşkilatdır" adlanır və 4 yarımbaşlıqdan ibarətdir: 1)"Avropa Şurası ilə Azərbaycan arasındakı əməkdaşlığın tarixi". 2) "Dağlıq Qarabağ problemi-Avropa Şura-

sında Azərbaycanın üzv qəbul edilməsindən əvvəlki mərhələ". 3)"Avropa Şurası tərəfindən qəbul edilmiş sənədlərin siyasi və hüquqi əhəmiyyəti". 4) "Avropa Şurası Parlament Assambleyası qətnaməsi təcavüzkar Ermənistanın cəzalandırılması üçün beynəlxalq hüquqi zəmin yaradır".

Vəsaitin III fəsli "Beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər" adlanır və aşağdakı yarım başlıqdan ibarətdir:

-Avropa Şurası,

-Avropa Şurası Nazirlər Komitəsi,

-Birləşmiş Millətlər təşkilatı,

-Avropada Təhlükəsizlik və əməkdaşlıq təşkilatı,

-ATƏT-in təklifləri,

-Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO),

-Avropa İttifaqı,

-Xarici siyasət və cəmiyyətin təhlükəsizliyi,

-İslam Konfansı Təşkilatı,

-Azərbaycan Respublikası prezidenti İlham Əliyev Avropa Şurası Parlament Assambleyasında nitqi,

-Azərbaycanın milli maraqları Avropa Şurasında yüksək səviyyədə qorunur.

Kitabın sonunda verilən "Əlavələr" sərlövhəsi xüsusilə maraqlıdır və burada siyasətçilərin və dövlət xadimlərinin Dağlıq Qarabağ problemi haqqında fikirləri işıqlandırlır. O cümlədən, Azərbaycan Respublikasının prezidenti İlham Əliyev, ABŞ prezidenti Corc Buş, Rusiya Federasiyasının prezidenti Vladimir Putin, Türkiyə Respublikasının prezidenti Əhməd Necat Sezər, Fransa Respublikasının prezidenti Jak Şrak, Almaniya Federal Kansleri Gevard Şruder, Almaniya Federativ Respublikasının prezidenti Horst Köler, BTM-nin baş katibi Kofi Annan, Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyub Ərdoğan, Çin Xalq Respublikasının sədri Xu Szintao, İran İslam Respublikasının prezidenti Məhəmməd Xatəmi, Türkiyə Respublikasının Xarici İşlər naziri Abdulla Gül, İslam Konfansı Təşkilatının Baş katibi Ekmələdin Ehsanoğlu, ATƏT-in ABŞ-dan olan həmsədri Stiven Mənn, Avropa Komisiyyasının sədri Romano Prodi, Avropa Birliyinin Baş katibi, Avropa Birliyinin ümumi xarici və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana, Türkiyə Doğru Yol Partiyasının sədri Dəniz Baykal, Almaniya Federativ Respublikasının Xarici İşlər naziri Yaşka Fişer və başqalarının fikirləri xüsusi maraq doğurur.

E.Abdullayevin Dağlıq Qarabağ münaqişəsindən bəhs edən kitabının üstün cəhətlərindən biri də ondan ibarətdir ki, burada Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə müfəssəl məlumat almaq mümkündür. Müəllif münaqişənin səbəblərini, onun xarakterini açmağa çalışmış və buna nail olmuşdur. Kitabda münaqişənin məhz Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları əsasında ortaya çıxdığı tarixi faktlarla sübuta yetirilir.

Kitabda Ermənistanın təcavüzkar siyasətinin və münaqişənin həlli prosesinin yubadılmasına hesablanmış taktikanın bilavasitə beynəlxalq hüquq normalarına zidd siyasi kursun təzahürü olduğuna dair faktlar, habelə bu ölkənin beynəlxalq birliyin bəyanatlarına hörmətsizlik nümayiş etdirməsi regionda davamlı sülhə və təhlükəsizliyə maneə kimi səciyyələndirilmişdir.

Kitabın bir üstün cəhəti də ondan ibarətdir ki, burada müəllif münaqişənin həlli prosesində Azərbaycanın apardığı siyasətin fəlsəfəsini açmağa çalışmışdır. Kitabda bir sıra beynəlxalq güclərin regionla bağlı siyasətinin bilavasitə münaqişənin doğurduğu reallıqlara əsaslanan istiqamətdə çox dəqiq formada şərh olunmuşdur. Burada həmçinin münaqişənin beynəlxalq birliyin gündəliyinə çıxmasının səbəbləri haqqında da geniş məlumat verilmişdir.

Müəllif Dağlıq Qarabağ məsələsinin beynəlxalq təşkilatlarda müzakirəyə çıxmasının səbəbləri və nəticələri barədə oxucularda dəqiq təsəvvür yaradır.

Kitabda tarixi faktlar əsasında göstərilir ki, Azərbaycan Avropa Şurasına üzv qəbul edildikdən sonra bu təşkilatın Dağlıq Qarabağ probleminə münasibətində köklü dəyişikliklər baş verdi.

Kitabda qeyd olunur ki, Azərbaycan danışıqlar prosesində heç bir nəticə olmasına baxmayaraq sülh prinsiplərinə sədaqəti ilə seçilir ki, bu da onun məhz Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə sona qədər əməl etmək iradəsinin təzahürü kimi qiymətləndirilir.

Kitabın məziyyətlərindən biri də beynəlxalq təşkilatların Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi mühüm sənədləri özündə əks etdirməsidir.

**B.A.ƏLƏSGƏROV,**
***Beynəlxalq Nobel İnformasiya Mərkəzinin həqiqi üzvü***